Abbas ağa Nazir

# İKİ QARDAŞ

*Uşaq poeması*

Abbas ağa Nazir    İki Qardaş / uşaq poeması

QN
QANUN NƏŞRİYYATI

**Abbas Ağa (Nazir) Qayıbzadə**

# İKİ QARDAŞ

*Taci şahi tələbi gövhəri zati benemai*
*və rəxud əz gövhəri cəmşid və firudun başi*
*(Hafiz)*

*"İki Qardaş" uşaq poeması 1912-ci ildə şair Abbas Ağa (Nazir) Qayıbzadə tərəfindən yazılmışdır.*

*Poema iki qardaşdan (ağıllı /zəhmətkeş və tənbəl / avara) bəhs edir. Kitabın orijinalı 108 il sonra (2020-ci ildə) şairin nəslindən olan Rüstəm Nazir Qayıbov tərəfindən tapılmışdır.*

**Abbas Ağa (Nazir) Qayıbzadə İKİ QARDAŞ**
Bakı, Qanun nəşriyyatı, 2020, 64 səh.

Tərtibçi: Rüstəm Nazir Qayıbov

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-

© Rüstəm Nazir Qayıbov, 2020
© QANUN nəşriyyatı, 2020

"Nazir" təxəllüs(lü) Abbas ağa Qayıbzadənin əsəri
Naşiri: Abbas Ağa Qayıbzadə
Sənə (il) hicri: 1330 - Sənə (il) miladi: 1912
Tiflisdə gürcü nəşriyyatının şirkət mətbəəsi

## -1-

Var idi bir ölkədə bir padişah.
Sahibi şövkət, əzəmət, tac və gah
Var idi şahın iki oğlanları.
Tazə açılmış gül-xəndanları
Ədhəm idi adı böyük oğlunun.
Əkrəm idi ismi kiçik oğlunun
Ədhəmi oğlan idi çox natəraz.
Örtülü göz, fikri dayaz, əqli az
Tac və sərirəh o vəliəhd idi.
Tifil cəhalət üçün üzü mehda idi
Gündüz işi-peşəsi seid və şikar.
Şoğli gecə bazi nərd və qumar
Kəsbi ulyumə yox idi rəğbəti.
Sənət və fəndən çox idi nifrəti
Zərrəcə tutmazdı xəbər elmdən.
Onda bulunmazdı əsər elmdən.
Bilməz idi mərifətin adını.
Görməmişdi ədəbin dadını.
Almaz idi mütləq əlinə qələm.

Yazmaz idi kağıza xətt və rəqəm.
Nəhi oxumaq onda kitab və vərəq.
Əmri əhəmm şurbi şərab və ərəq.
Ləhv və ləiblə keçirib günlərin.
Etməz idi fəhm o xeyir və şərin.
Hasili biqeyrət və biar idi.
Yava gəzən tənbəl və bekar idi.
İndi keçək Əkrəmin əhvalına.
Göz yetirək halına, əhvalına
Tərəfi cavan idi o xeyli ğeyvər.
Əqli ayıq, çeşmi açıq, fikri dur
Talib idi elmə nəhayətdə o.
Rağib idi sənətə ğayətdə o.
Düşməz idi bir dəm əlindən kitab.
Şövqilə oxurdu olub feyziyab.
Yoldaşı peyvəstə dəvat və qələm.
Yazı idi şoğli onun dəmbədəm.
Fariğ olan vəqt oxuma, yazmadan.
Eyləyərdi kəsbi sənaye və fənn.
Peşə və sənətdən o etməzdi ar.
Kəsbi ilə eylərdi o iftixar.
Gəlməz idi xoş bu əməl Ədhəmə.

Sərzəneş eylərdi modam Əkrəmə.
Elm ilə cəhl içirə bulunmaz vəfaq.
Fur ilə zülmət etməz ittifaq.
Atəş ilə ab olmaz heç saz.
Kəbin ilə yoldaş dəxi çarəbaz.
Bu cəhdə əvvəl iki qardaş həm.
Biri birindən eyləyərlərdi rəm.

## -2-

Bir günü məşğul ikən Əkrəm işə.
Əldə hacət o gerehnur ikən peşə
Başladı Ədhəm eyləmək rişxənd.
Dedi ona tənə ilə xudpəsənd:
Səndə nə peşədi, nə sənətdi bu.
Eyni səfalətdi, rəzalətdi bu.
Heç yaraşarmı bu ki şah oğluna.
Boş boşuna zor verib əqlinə.
Kərki, təbər, biçəqi əlində modam.
Gah kəsə, gah yona sübh və şam.
Cəhd qıla o gerehnə o nəccarlıq.
Üzmi veribdir ona naçarlıq?

Bu nə rəva ki taxıb önlüyün döşə.
Çəkməçilik tək yapışa boş işə.
Bu peşə şahzadəyə layiq deyil.
Şaneyi halinə müvafiq deyil.
Elm nə lazım dəxi şahzdəyə.
Dərdü qəm və qüssədən azadəyə.
Qoy oxusun elmi vəkil və vəzir.
Elmi nə hacət oxuya şah, əmir.
Elm oxuyubdur atamız şah məgər?
Var mı onun şahlığında bir zərər?
Belə dəxi işləri gəl tərk qıl.
Boş, quru zəhmətdi bunlar, dərk qıl.
Əkrəmə bu tən ağır gəldi çox.
Bilmədi versinmi cavabın ya yox.
Qardaşının bildi avam olduğun.
Fikri cəhalətlə başı dolduğun.
Bildi ona etməyəcək söz əsər.
Xeyirdisə anlayacaqdır o şər.
Etdi vəli fikri ki hər gah cavab.
Verməsə Ədhəm verəcəkdir əzab.
Eyləyəcək gündə məzəmmət onu.
Qoymayacaq ləhzə fərağat onu.
İstəməz istər ona verdi cavab.

Tutdu üzün Ədhəmə etdi xitab:
Söylədiyin cümlə xətadır xəta.
Heç biri insafa deyildir rəva.
Zim eyləyib elm və fən və sənəti.
Eylədin irad mənə töhməti.
Elmi məzəmmət eyləməz əhli əqil.
Elmə gedir əks vəli əhli cəhl.
Elm işıq, cəhl qaranlıqdı, bil.
Elmi gün və cəhli gecə əd qıl.
Elm və kəmal olmasa insanda gər.
Onda nə heyvan və nə noi bəşər.
Belə buyurdu bizə şahi ərəb:
“Çində də olsa, edək elmi tələb”.
Xassə ki şahzadəyə vacibdi elm.
Şahi cahan aləmə sahibdi elm.
Sadir olur elmidən insaf və ədl.
Lakin doğar zülm ilə bidadi cəhl.
Ədl ilə abad olur məmləkət.
Zülm ilə bərbad olur səltənət.
Elm ilə məmur olur dəhrlər.
Cəhl ilə viran olur şəhərlər.
Fəth olunur elm qılıncıyla şəhr.
Zəbt olunur keşti elmiylə bəhr.

Hər pis əməl cəhldən edir sudur.
Hər dəni iş həm edir ondan zühur.
Hər əməli xeyrə səbəb elmdir.
Kari niku ğeyrə səbəb elmdir.
Elm yox isə atamızda əgər.
Munde bizə var təsəlli məgər?
İndiyədək çəkmədisə o zərər.
Belə gedərmi görək iş sərbəsər.
Kəsbi sənaye dəni işdərdidik.
Peşəni lap çirkin əməl söylərdik.
Olmasa aləmdə əgər pişəgər.
Fikri qılıb aya dolanarmı bəşər.
Kim sənə bu qəsri yapardı əgər.
Olmasa kərki, təpər və pişəgər.
Fəxr qılırsan bu uca qəsr ilə.
Yad qıl ustadını həm fəxr ilə.
Peşə və sənət eyləsəm kəsb mən.
Xeyirdən özgə nə çıxar kəsbdən.
Tut ki deyildir mənə lazım peşə.
Bilməyi edərmi zərər bir işə.
Yadına sal "məşətzən"k qissəsin.
Sədinin onda oxu bu fərdlərin:
"Gər biğəribi rudəz şəhri xiş.

Səxti o mehnət nəbərəd pine duz.
Vərrubixərabi fətəd əz məmləkət.
Gərsənə xəsbəd mələk nimruz”

Tərcümə:

“Şəhərini tərk eyləsə yamaqçı əgər.
O nə əziyyət nə də zəhmət çəkər.
Məmləkətindən çölə gər qoysa üz.
Ac yatar o vəqt şah nimruz”
Batmadı beyninə bunlar Ədhəmin.
Həqq idi hərçənd sözü Əkrəmin.
Çünki təbiətdə yox idi vəfaq.
Düşdü arasına onların nifaq.
Gəzdi bu ondan, o da bundan kənar.
Etmədilər biri biriylə mədar.
Yoldaş yoldaş ilə tən gərək.
Olmasa tən, araları gen gərək.

## -3-

Şahi vilayətdə yox idi çün elm.
Məmləkəti zəbt eylədi şahi zülm.
Kök ata bir yerdə əgər beydi cəhl.
Pərvəriş etməz orda da sərvi ədl.
Gərçi deyildi şah özü zülmkar.
Onda yox idi vəli o ixtiyar.
Bağlaya zülmün yolun amillərə.
Tapşıra xalqın işin adillərə.
Hər işə daxil etdi və qul və vəzir.
Zülmlə tapdandı kəbir və səğir.
Olmasa bir ölkədə adil divan.
Məhv olur asayiş və əmin və aman.
Olmasa bir iqilmdə zülm tamam.
Kəsr tapar səltənət etməz davam.
Zülm və sitəmdən doyubən cana xalq.
Gəldi bütün nalə və əfğana xalq.
Düşdü vilayət içinə iğtişaş.
Oldu dönüklük, hamı qaldırdı baş.
Yeksərə xalq eylədilər ittifaq.
Dağ yıxılar olsa əgər ittifaq.
Şahı gedib taxtdan endirdilər.

Səltənətin şamını söndürdülər.
Barigahın eylədilər tarımar.
Əhli əyali bütün etdi fərar.
Düşdü hərə bir yerə şahzadələr.
Bilmədilər biri birindən xəbər.
Şahın özün qalada həbs etdilər.
Gör kim idi, axırını nə etdilər.
Cümlə o şövkət, o şüku və cəlal.
Bir göz açıb yummada tapdı zaval.

## -4-

İndi yazım şahzadələr halını.
Şərh eyləyim onların əhvalını.
Nəql edim əhvalın əzəl Əkrəmin.
Kəşf olar axırda işi Ədhəmin:
Tace səzavar idi Əkrəmdə baş.
Lakin "yanar qurunun oduna yaş".
İstədi xalq nəslini şahın kəsə.
Bu səbəbə baxmadı yaxşı pisə.
Əkrəm işin gördü fəlakətdədir.
Diriliyi gərdab həlakətdədir.

Qurtara ta təhlükədən canını.
Tərk eylədi xanə və ünvanını.
Oldu çün şahzadə vətəndən qaçaq.
Getdi bir axır yerə düşdü uzaq.
Bildi çörək verməz ona heç kəs.
Öz əlidir ancaq ona dəstirəs.
Dedi nə olar getdisə şahzadəlik.
Şükür xudaya ki var azadəlik.
Şükürlər olsun ki deyil şil əlim.
İşləməyə var mənim saz qolum.
Eyləmərəm özgələrə minnəti.
Öz özümə mən edərəm xidməti.
Müxtəsəri, fürsəti fövt etmədi.
Rizq üçün əvvəli kəsbi şuru eylədi.
Çəkməçiyə oldu o şagird əzəl.
Hər nə buyurdusa o etdi əməl.
Mahir idi gərçe bu sənətdə çox.
Neyləsin amma o çün sərmayə yox.
Ta onun özü aça ayrı dükan.
Aid ola nəfsinə sud və ziyan.
Etdi bir il müddəti şagirdilik.
Daha da artırdı məharət, bilik.
Maya keçirdi əlinə bir qədər.

Açdı özü üçün dükan o pişəgər.
Çəkməçilik eylədi üç-dörd il o.
Müştərisi oldu nəhayətdə bol.
Tapdı təriqi işi gündən günə.
Artdı onun mayası dönə-dönə.
Sonra ticarət işinə qoydu əl.
Görmədi bu işdə dəxi bir xələl.
Doğruluq idi çün onun peşəsi.
Əyriliyə yox idi əndişəsi.
Bilməz idi hiylə və aldatmağı.
Birə iki qiymətə mal satmağı.
Bu səbəbə kəsb eylədi etibar.
Etdi hamı rəğbət ona bişomar.
Müştəridən onda yox idi macal.
İşdə idi ruz və şəb və mah və sal.
Var idi şagirdləri neçə nəfər.
İşləyir idilər onlar sərbəsər.
Biri tutub əldə tərəzi və daş.
Onda çəkər idi şəkər başu baş.
Arşın əlində birinin daima.
Ölçür idi çit, ipək və zərxara.
Biri əlində çəkir idi hesab.
Nisyəni yazırdı tutub bir kitab.

Dəxilə bir əldən tökülürdü qızıl.
Əşrəfi, bacaqlı, gümüş müttəsil
Etdi ticarət iki il sərbəsər.
Yığdı bu vəchlə o çox sim və zər.
Var idi Əkrəmdə çün elmi kamal.
Kəsb elədi həm özü mal və mənal.
Getdi onun günü-gündən işi qabaq.
Gördü işin yaxşı qabaqca qoçaq.
Bir kəs ola aqil və həm durbin.
Xoş keçər ovqatı həmişə yəqin.
Tərki ticarət eylədi sonra o.
Tapdı gedib barıgah şahə yol.
Oldu vəzir ilə əzəl aşina.
Düşdü pəsəndidə və məqbul ona.
Fəhm qılıb əql və kəmalın vəzir.
Eylədi təklif ona cai dəbir.
Sidqilə qulluq eylədi altı ay.
Əxtərbəxt oldu ona runemai.
Şahə onun qulluğu oldu əyan.
Payei fəzlin eylədi imtahan.
Gördü ki çox zirək və qabildir o.
Əhli hünər aqil və kamildir o.
Eylədi bir nahiyə təhfiz ona.

Taki edə rəsmi hökumət əda.
Qoydu ayaq çün işə o nikənam.
Zənnini doğrultdu şahın bilnəmam.
Xalq ilə rəftar eylədi atatək.
Pərvərəş eylədi onları anatək.
Bir göz ilə baxdı böyük kiçiyə.
Qoymadı seçki birinə bir tikə.
Ədl ilə məmur eylədi ölkəni.
Məzlumədən dur eylədi ölkəni.
Eylədi çox məscid və məktəb bina.
Oldu savab işlərə himmətnəma.
Əlsiz ayaqsızlara eylədi kömək.
Aclara, möhtaclara verdi çörək.
Hakim idi adı əgerçe onun.
Lakin atasıydı fəqir, düşgünün.
Bağladı xalq mehr və məhəbbət ona.
Eylədi sidqilə itaət ona.
Bildi bu əhvalı təmamən çü şah.
Şəfqət ilə Əkrəmə etdi niqah.
Məmləkətin həsən modarı üçün.
Gördü səlah ki onu çəksin yaxın.
Boş idi o vaxt vəzirin yeri.
Əkrəm üçün eylədi şah tədbiri.

Eylədi təyin onu bu mənsəbə.
Çün yaraşırdı ona bu mərtəbə.
Bağladı şah Əkrəmə çox etibar.
Verdi ona hər bir işdə ixtiyar.
Şah özü çox aqil və dana idi.
Əhli kərəm, mədələt ara idi.
Söylə: Xoş halına o ölkənin.
Şahı, vəziri ola aqil onun.
Qarə geyinsin o vilayət ki şah.
Eyləməz fərq sefid və siyah.
Oldu vəzir ilə çu həmdəst şah.
Tapdı qərar ölkədə əmin və rifah.
Şah vəziri ilə əgər görsə kar.
Aləmi o mat qılar aşikar.
Şərt bu ki hər ikisi aqil ola.
Elm və hünər sahibi, adil ola.

## -5-

Bir neçə il şah ilə Əkrəm bahəm.
Saxladılar ölkəni zir qələm.
Verməmiş idi şaha övlad bəxt.

Pəs yox idi onda vəliəhd təxt.
Vədə yaxınlaşdığını bildi şah.
Gördü həyat üçün olub tənkerah.
Məmləkət zəifə qoyub üz bədən.
Mülk ədəmə sarı edib meyli tən.
Lap boşalıb yırğalanır təxti ömür.
Gedə gedə yığışılır rəxti ömür.
Tac mərsədən olub sərgərdan.
Saxlamağa yoxdu başında təvan.
Pik əcəl hər gün onu gözləyir.
Molla, axund hər qədəmin izləyir.
Cəmi edibən başına əyanı.
Eylədi cari belə fərmanı:
Məxfi deyildir sizə bu əmri kim.
Taxta vəliəhd yoxumdur mənim.
Ta ki edən vəqtdə mən irtihal.
Məmləkətə düşməyə bir qil və qal.
Məsləhət odur bizə kim piş vəqt.
Həll oluna məsələyi tac və təxt.
O kəsə lazım verilə taxt və tac.
Kim o verə hər işə rövnəq, rəvac.
Xalq ilə rəftar qıla, dad edə.
Məmləkəti ədl ilə abad edə.

Şəxsi qərəzdən özünü dur edə.
Mənfəət aməni mənzur edə.
Hal rəayani riayət edə.
Onları hər vəchlə rahət edə.
Belə kəsi göstərək insaf ilə.
Xidmət edək xalqa dili saf ilə.
Nitqini payanə yetirdi çü şah.
Oldu əyan məqsədi aləmpənah.
Cümlə işarə kimədir bildilər.
Şah ilə həmrəy və zəban oldular.
Baxdılar insaf gözüylə işə.
Getmədilər əyri söz ilə işə.
Əkrəmə çün layiq idi tac və təxt.
Bu cəhətə oldu ona yar bəxt.
Şaha hesab etdilər onu vələd.
Yəni vəliəhdliyə namizıd.
Elə ki baş tutdu bu əmri əhəm.
Şahi cahan bəstərə qoydu qədəm.
Oldu zəifulbədən və naməzac.
Səhhətinə olmadı heç bir əlac.
Hər azara, hər mərəzə çarə çox.
Lakin ölüm xəstəsinə çarə yox.
Zəifdən oldu bini çün həlak.

Ömri abi aqibət etdi zəval.
Vədə günü yox idi əcəldən pənah.
Birdir ona xahi gəda, xahi şah.
Qəriyə və şəhr əhli yığıldı tamam.
Mərd və zən və pir və cəvan, xas və am.
Xəlq tutub yas, geyindi qara.
Şövkət ilə dəfni olundu əda.
Calisi taxt eylədilər Əkrəmi.
Qismət ona oldu vilayət qəmi.
Çəkməçicik idi əzəl sadə o.
Gün keçirirdi xoş və azadə o.
Düşdü onun boynuna bari geran.
Dərd və qəm və qüssəyi külli cahan.
Əkrəmə bu no ilə keçdi sərir.
Elm qılar adamı şah və vəzir.
Var idi Əkrəmdə çü insaf və dad.
Oldu onun şahlığına xalq şad.

## -6-

Bir günü eyvanda oturmuşdu şah.
Küçəyə sarı edir idi niqah.

Gördü ki var küçədə çox izdiham.
Adəm ilə küçə dolubdur tamam.
Ortada bir mucrimi fərraşilər.
Süriyür idilər açıq pa və sər.
Bağlı idi qolları kəndir ilə.
Boynu, ayağı dəxi zəncir ilə.
Kimi vururdu ona sillə, kötək.
Kimi atırdı yalama daş, kəsək.
Şah hüzuruna nə dəm çatdılar.
Cürmin onun yerbəyer ərz etdilər.
Ta verə edamına fərman şah.
Darə çəkib edələr onu təbah.
Baxdı onun şah çü simasına.
Olmadı çox mail asılmasına:
Surətini gördü degərgün onun.
Gözlərini çökmüş və por xun onun.
Rəng saralıb misli güli zəfəran.
Qəddi qəm və qüssədən olmuş kəman.
Yoxdu dodağında onun damcı qan.
Acı nəfəs ilə doludur dəhan.
Can diləyirdi örümçəkdən o.
Ölmüş idi guya gerçəkdən o.
Etdi yəqin şah o əhli kərim:

Ki o yazıq nahaq olub müttəhim.
Oxşamır əhli günaha fəqir.
Səhvə olub dam bəlaya əsir.
Gər günahı var isə icbaridir.
Əmri zəruridir və naçarədir.
Mucrim ayağına yıxıldı şahın.
Qanlı yaşın payinə sildi şahın.
Şah onu qaldırtdı ayağa nə dəm.
Dedi o mehnət zədəye çərxe xəm.
Ey şəhi kəsri sifət və cəm kolah.
Padişahe adil və aləmpənah.
Cümlə ümidsizlərə ümidgah.
Müalicə və mavai həme dade xah.
Mərhəmətin dar alamandır mənə.
Məkrəmətin mayeyi candır mənə.
Rəhm elə bir saat aman ver mənə.
Ərz edim əhvalımı şahə sənə.
Qətlimi istəyirsə günahım mənim.
“Üzr” dilər əfvimi şahım mənim.
Hər nə qədər təqsirim olsa böyük.
Üzrüm edər təqsirimi, ey şah, kiçik.
İzin ver əhvalımı nəql eyləyim.
Cümlə qəza və qədəri söyləyim.

Var qəziyyəmdə mənim xəsrəva.
Halət və keyfiyyət übur tanıma.
Nəqli işə etməsə də gər kömək.
Elmi müfid olmağına yoxdu şəkk.
Rəhm qılıb verdi ona izin şah.
Ərz edə ta halını o rusiyah.
Gəldi vəli mucrimə bu xeyli ar.
Halı onun xəlqə ola aşikar.
Tutdu üzün şaha yenə binəva.
Aciz və təzrə ilə dedi ona.
Olsa mənə şahın əgər rüxsəti.
Halımı mən ərz edərəm xəlvəti.
Eylədi bu ərzini həm şah qəbul.
Mucrimə verdi öz otağına yol.
Əmr eylədi bağın önünə aldılar.
Sonra otağına şahın saldılar.
Elə ki onun düşdü otağa gözü.
Oldu dili lal, kəsildi sözü.
Başdan uçub əqli, yıxıldı yerə.
Mordə cəsəd kimi sərildi yerə.
Şah bu əhvalı görüb qaldı mat.
Sanki qabağını şahın aldı at.
Hökm eylədi üstünə su tökdülər.

Dalın ovub qol qıçını çəkdilər.
Su səpibən üzünə həm gözünə.
Güclə gətirdilər onu özünə.

## -7-

Mucrim açıb sonra dəhan və zəban.
Eylədi əhvalını şərh və bəyan.
Dedi ey şah müruvvət pənah.
Kömək eylə dour edə xurşid və mah.
Mən ki yıxıldım burada indicə.
Bu deyil idi əbəs və bihudə.
Düşdü gözüm çün bu otağa mənim.
Gəldi o dəm yadıma keçmiş günüm:
Sən kimi şah idi mənim də atam.
Onda da var idi bəsat tamam.
Bu əzəmət, təntənə, bu dəstgah.
Şövkət, şan, cəh, cəlal, tac və gah.
Bizdə dəxi var idi ey qibləgah.
Baxma ki halım olub indi təbah.
Bundan uca idi bizim qəsrimiz.
Ərşə dəyirdi qülləyi fəxrimiz.
Biz iki qardaş idik ey padişah.

Birisi mən – mucrim, bəxti siyah.
Digəri məndən kiçik, ey şəhriyar.
Oğlan idi zirək və çox huşiyar.
Çün ulu fərzəndi idim atamın.
Şəri vəliəhdi idim atamın.
Yəni ki mən gözləyir idim tac və gah.
Gör fələyin işini ey padişah.
Doğru imiş "Saydığını say sən.
Gör nə sayar lakin bu çərxi köhn".
Elmə yox idi həvəsim heç mənim.
Şorb və qumar ilə keçirdi günüm.
Qafil idim kari cahandan şəha.
Qalib idi cəhl setəmkər mənə.
Başqa idi halı kiçik qardaşın.
Özgə idi xilqəti onda başın.
Sənət və elmə həvəsi çox idi.
Meyli həva və həvəsə yox idi.
Bir günü mən etdim ona sərzəneş.
Elm və sənayedi dedim çox boş iş.
Qoul və dəlaillə mənə ol cavan.
Fəzlini elm və fənn etdi bəyan.
Şərh eylədi mənfəətin sənətin.
Dedi peşə mayesidir sərvətin.

Eyləmədim sözlərinə etina.
Vermədim onlara qulağımda ca.
Pənbei cəhl almış idi quşimi.
Badei qəflət aparıb huşimi.
O dedi ağ, lakin dedim qarə mən.
Dedi bütün o, söylədim parə mən.
Çəkdi aramızda uzun qil və qal.
Gedə gedə yoğnudu qal və məqal.
Sözlərimiz bir birini tutmadı.
Biri birimizə əsər etmədi.
Axırı rəncidəlik etdi zühur.
Qalxdı aramızda nəqar və küdur.
Etdi bu əsnada vuqu özgə iş.
Oldu tamam işlərimiz qat qarış.
Düşdü bizim ölkəmizə inqilab.
Çıxdı üzə şur və şər bihesab.
Xəlqi vilayət yığılıb bilumum.
Eylədilər köşkünə şahın hücum.
Şahı kənar eylədilər taxtından.
Oldu uzaq mərtəbədən, baxtından.
Zir və zir eylədilər xanəmiz.
Tərki vətən eylədik axırda biz.
Ta ayağım tutdu fərar eylədim.

Əcnəbi bir mülkə qozar eylədim.
Düşdü yolum bir köyə axır mənim.
Oldu o köy içrə mənim məskənim.
Çün yox idi məndə bir elm və hünər.
Peşə və sənətdən idim bixəbər.
Müşkil idi kim edibən kəsbikar.
Hasil idim vəchi maaş və mədar.
Çarəsiz oldum bir ağaya nökər.
Qulluğuna bağladım onun kəmər.
Tutduğu işi kişi bilmək gərək.
Hər bir işə adət edilmək gərək.
Çünki nökərlik deyildi işim.
Gündə yedi sillə və yumruq başım.
Hansı iş oldusa həvala mənə.
Öldməyi mümkün onu əmin əda.
Əmr eylədilər mənə su çəkməyi.
Zir və zibili daşıyıb tökməyi.
Bir günü çaydan götürən vəqt su.
Düşdü əlimdən yerə sındı səbu.
Xoca mənim başıma vurdu qapaz.
Dedi gözümdən itil ey natəraz.
Sən kimi qanmaz nökəri istəməm.
Əqli yüngül dəngəsəri istəməm.

Qovladı əlqissə evindən məni.
Etdi özündən uzaq və gen məni.
Sonra gedib tacirə oldum nökər.
Oldu əzəlindən işim beş betər.
Vermədi bir dəfə doyunca çörək.
Nan əvəzinə o yedirtdi kötək.
Axşamadan tay götürtdü mənə.
Müttəsil anbar süpürtdü mənə.
Sübhlər axşama kimi işlədim.
Gecələr ah çəkdim əlim dişlədim.
Yad qılıb qardaşımın sözlərin.
Fikr eylədim diqqət ilə hər birin.
Gördüm o sözlər həqq imiş sərbəsər.
Elmsiz adam olur imiş çün xər.
Olmaz imiş yük daşımaqdan səva.
Bir şeyə məsrəf daha ol binəva.
Tay daşımaqdan lap əyildi belim.
Düşdü qıçım haldan, üzüldü qolum.
Tərk eylədim qulluğunu tacirin.
Verdim özüm qapısına axərin.
Mehtəri oldum gedibən bir bəyin.
Yəni ki qulluqçusu at, eşşəyin.
Oldu işim ata tumar eyləmək.

Vəqt bu vəqt tazı, tula bəsləmək.
Qulluğu ağır deyil idi bəyin.
Çəkmir idim əsrətini ipliyin.
Xasiyyət və xülqi pis idi vəli.
Durmaz idi dinc dili həm əli.
Hər çürük iş üstünə döyürdü məni.
Yava kəlamıyla söyürdü məni.
Mən kimi aludə cəhl idi o.
Var idi dövlət atadan qalma bol.
İrs qoyunca ata mal oğluna.
Kaş qoya elm və kəmal oğluna.
Elm ilə kəsb etmək olur mülk və mal.
Olmaz isə elm, edir onlar zəval.
Təngə gətirdi məni bu müxtəsər.
Qalmadı səbr etməyə imkan digər.
Qoydum əlimdən yerə mehtərliyi.
Ta ki edim özgəyə kehtərliyi.
Fikr eylədim lakin bu əsnada mən.
Ki deyiləm qabil heç zadə mən.
Bu səbəbə hər yerə getsəm mənə.
Rahi dolanmaq olacaqdır cəfa.
Çarə odur az və çox elm öyrənəm.
Bəlkə ola rəf bu dərd və ələm.

Var idi kənd içrə bir alicənab.
Olmuş idi elmdən o bəhrəyab.
Çünki o bir molla idi çox dərin.
Getdim onun sidqilə öpdüm əlin.
Eylədim əlhahilə ondan rica.
Ki o mənim dərdimə edə dəva.
Yəni ki yazmzq, oxumaq öyrədə.
Elm və ədəbdən məni hali edə.
O məni şövqilə qəbul eylədi.
Lütfilə həm bir neçə söz söylədi.
Dedi əcəb dərs verərəm mən sənə.
Quranı tədris edərəm mən sənə.
Öyrədərəm elmi şəriət tamam.
Babi-hədis, fəsli təharət tamam.
Qüslü-bədən, surəti heyz və nifas.
Həm dəxi təthiri libas və pəlas.
Şərti vüzu, fərzi səlavat və siam.
Qaideye səcdə, ruku və qiyam.
Siğeyi ənikahət və zövcətini.
Rəsmi verə mütə və təlaqatını.
Öyrədərəm həm əvvəli tədfinini.
Qüslünü, təchizini və təkfinini.
Özgə elmə dəxi yox ehtiyac.

Heç biri dərdə eyləməz bir əlac.
Eyləki bunları bildin, ey oğul.
Sanki açıqdır sənə hər yerdə yol.
Molla qoyarlar adını o zaman.
Kəsbi qılarsan bu sayaq ad və san.
Xalq də edər əlbəttə sənə ehtiram.
Başda verərlər sənə daim məqam.
Dəvət edərlər səni xeyirə, şərə.
Xeyrin olur düşsə yolun hər yerə.
Molla üçün tənk deyildir mədar.
Həm ölüdən, həm diridən payı var.
Xülasə məhərrəm, ramazan ayları.
Molla, axundun çox olur payları.
Tutdu bu sözlər sümüyümü lap mənim.
Sanki yüngülləşdi yüküm lap mənim.
Müxtəsər oldum ona qulluqçu mən.
Olmadım artıq giləmənd bəxtdən.
Həm də onun qulluğu asan idi.
Külfəti yox idi, tək can idi.
Ancaq ona aftava vermək işim.
Başmağını bir də çevirmək işim.
Evdə onun artıq işi yox idi.
Xordu-xörək, aş və bişi yox idi.

Çünki o evdə yeməz idi çörək.
Hazır idi çöldə onunçun xörək.
Gündə qoyurdu bir evə o qədəm.
Mən də gedirdim onun ilə bahəm.
Heç yemək içməkdə yox idi qüsur.
Hasil idi zövq və səfa və sürur.
Hasili çox isticə idi yerim.
Yox idi əsla dəxi dərd və çərim.
Başladı dərs verməyə o şəxs gözəl.
Olsun ona məğfirəti ləm yəzəl.
Qoydu yerə kal kimi o dizlərin.
Yummadı bir ləhzə qoçaq gözlərin.
Gecə və gündüz eylədi səy və cəhd.
Çün o cənab etmiş idi binə əhd.
Ki mənə elm öyrədə hasil edə.
Tez üləma silkinə daxil edə.
Çəkdi beş il müddəti rənc və cəfa.
Əlhəq əvvəl öyrətdi əlifba mənə.
Verdi təmiz söz ki beş il həm keçər.
Su kimi quran oxumaq öyrədər.
Lakin onun etmədi ömrü vəfa.
Ta yetirə etdiyi əhdi beca.
Vermədi möhlət ona namərd əcəl.

Ki edə o verdiyi sözə əməl.
Yəni bu dünyadan o çəkdi ayaq.
Olsun o dünyada onun üzü ağ.
Oldu kefim xeyli pərişan yenə.
Çünki işim tapmadı səhman yenə.
Aldı yenə dərd məni təzədən.
Saldı məni əngilə çərx köhnədən
Qalmış idim çaş-baş aralıqda mən.
Az qala çıxmışdı canım qüssədən.
Çatdı bu əsnada mənə bu xəbər.
Ki var imiş kənddə məlum digər.
Təzə üsul ilə modam dərs verir.
Bir aya yazmaq, oxumaq öyrədir.
Tutdu qəribanımı dəsti həvəs.
Fikir eylədim bəxtim olub dəstirəs.
Getdim alıbən sorağın evinə.
Mənzilə çatdım sevinə-sevinə.
Lakin onu evdə tapa bilmədim.
Sürət ilə məktəbə əzm eylədim.
Yox idi məktəbdə dəxi o cənab.
Var idi hərçənd hesabsız kitab.
Get-gəl ilə keçdi günüm düz üç ay.
Olmadı bəxtim kimi əvvəl runemai.

Söylədilər gah şikara gedib.
Gah dedilər dari qumara gedib.
Gah dedilər ki ziyafətdədir.
Gah nişan, gah toy və sünnətdədir.
Gah dedilər şəhrə gedib seyr üçün.
Ta ki gəzə, keyf çəkə bir neçə gün.
Gah dedilər düzdə kotan sürdürür.
Gah dedilər güldə ağac qırdırır.
Gah dedilər bağda üzüm sıxdırır.
Gah dedilər dağda qoyun qırxdırır.
Bir günü rast oldu mənə nagahan.
Eylədim əhvalımı ərz və bəyan.
Baxdı mənə, dedi ki yaşın ötüb.
Tərbiyə, təlim zamanı keçib.
Məktəbə olmaz səni etmək qəbul.
Yox buna qanun məkatəbilə yol
Dərs verər idim mən evimdə sənə.
Yoxdu vəli fürsətim əsla buna.
İş güc ilə lap qarışıbdır başım.
Var xüsusi özümün çox işim.
Bağladım ümidimi hərçənd ona.
Olmadı bir nəfimüssər mənə.
Hər yerə etdimsədə seyr və qozar.

Oldu mənə qəhət maaş və mədar.
Ədhəm bəxtim mənə ram olmadı.
Sərkeş idi zirilləcam olmadı.
Elə ki hər yerdən üzüldü əlim.
Oldu pərişən və məşuş halim.
Dövr eylədim ortada çılpaq və ac.
Qalmadı məndə dəxi özgə əlac.
Qəsd eylədim özgələrin malına.
Baxmadım əsla əməlin dalına.
Feili bədim oldu çü zahir mənim.
Çatdı işim bu yerə axır mənim.
Yoxdu cəhalət evim ey padişah.
Verdi xəcalət mənə ol rusiyah.
Dəyməsə idi şər o məlunədən.
Çəkməz idim bir belə azar mən.
Mən də olardım sənintək tacedar.
Olmaz idim böylə sezavar dar.
Kimsəyə olmazdı niyazım mənim.
Kəndirə düşməzdi boğazım mənim.
Didələrim dolmaz idi qan ilə.
Yanmaz idi dilğəm suzan ilə.
Qapılara düşməz idim xar və zar.
Olmaz idim dərd və bəlaya düçar.

Dəyməz idi başıma gündə qapaz.
Qoymaz idilər adımı anlamaz.
Belədir əhval və qəziyyə şaha.
Doğrudur başdan ayağa macəra.
Səndədir ey şahi şahan ixtiyar.
Əfvi gənə - ya da ki kəndir və dar.
Ya ba xubən cürmümə öldür məni.
Ya nəzir et üzrimə qaldır məni.
Qəhrin olur isə cəzadır mənə.
Rəhmin olur isə səzadır mənə.
Hər ikisi dur deyil ədlidən.
Etdi mənə zülm şahım! cəhlidən.

## -8-

Eylədi çün halını mucrim bəyan.
Sərnehan Əkrəmə oldu əyan.
Sözlərinə verdi sərasər çün quş.
Xuni əxvət eylədi onda cuş.
Bildi ki Ədmədir bu bəxti qara.
Cəhl qılıb ani düçar bəla.
Hüsni lakin etmədi tez aşikar.

Səbr və vüqar oldu ona pərdədar.
Taki əzəl yığnağı sakit edə.
Rahət olub xalq qapıdan gedə.
Çıxdı camaat içinə sonra şah.
Müntəzir idi çü rəiyyət, sepah.
Dedi onlara: Bilin ey xas və am.
O kəsə ki "mucrim" olunmuşdu nam.
İndi mənim əmin və əmanəmdədir.
Əfv olunub zimn zimanəmdədir.
Zaminəm ayəndəsinə mən onun.
Çünki xəbərdaram işindən onun.
Doğrusu mucrim demək olmaz ona.
Yoxdur onun cürmi, yəqindir mənə.
Əslinə baxsaq, o müqəssir deyil.
Çünki bu işdə o müdəbbir deyil.
Əmrinə cəhlin o edibdir əməl.
Qoymayıb öz əqli ilə işə əl.
Cəhl tərifdən işə məmurdur.
"Kimdə ki məmur ola məzurdur"
Çəkmək onu dara deyildir rəva.
Rəsmi ədalət buna verməz rəza.
Əsl müqəssir burada cəhldir.
Bilmək onu səb deyil, səhldir.

Cəhli gərəkdir ki çəkək darə biz.
Ta ki bununla sağala yarəmiz.
Kəsməsən kökdən ağacı əgər.
Yüz kəsəsən şaxı, kəsilməz səmər.
Cəhl ağacının qoparaq rişəsin.
Çəkməyək acı səmər əndişəsin.
Cəhl ağacı məhv olarasa əgər.
Dar ağacı lazım olurmu digər.
Dəf gərək əsl vətən düşməni.
Ta ki tapa əhli vətən imanı.
Lakin buna hamıda himmət gərək.
Qeyrət və namus və həmiyyət gərək.
Eylədi çün mətləbini şah tamam.
Oldu camaat hamısı şad kam.
Ədlinə şahın dedilər mərhaba.
Eylədilər cümləsi həmd və səna.
Elə ki xalq sakit olub getdilər.
Dərgəhe şəhanəni tərk etdilər.
Şah öz otağına qayıtdı girəv.
Əmr eylədi qullarına ruberu.
Ədməmi hamamda çimdirdilər.
Tazə ipək camə geyindirdilər.
Lap bəzədilər onu şahzadətək.

Pak qılıb bəndeyi azadtək.
Saçdlar əndamına ətir və gülab.
Verdilər axırda təam və şərab.
Sonra apardı onu yanına şah.
Diqqət ilə etdi sərapa niqah.
Var idi çün onda bir neçə nişan.
Bildi ki qardaşıdır o bigüman.
Dedi ona: Diqqətlə bax mənə.
Şübhəli bir şey görünürmü sənə.
Ədhəmə qayətdə əcəb gəldi bu:
Şah edə onunla belə qoftequ.
Etdi yəqin ki bu səbəbsiz deyil.
Var bir iş bihudə hərgez deyil.
Şaha nəzər etdi nədəm baş ayaq.
Qaş-qabaq açıldı, qımışdı dodaq.
Barmağını dişlədi o nagahan.
Oldu əyan çün ona sərnehan.
Etmədi heç şək ki o qardaşıdır.
Əhdi səbavətdəki yoldaşıdır.
Elm və hünər sahibi Əkrəmdir o.
Bu cəhətə şahi məkrəmdir o.
Hər ikisi halı çün etdi yəqin.
Bir birinə gəldilər onlar yaxın.

Əvvəl iki qardaş qucaqlaşdılar.
Yada salıb keçmişi ağlaşdılar.
Əkrəmə Ədhəm olubən üzrxah.
Dedi çəkib hüzn və təəssüflə ah:
Keçmiş işi əfv eylə ey qardaşım.
Cəhl ilə dolmuşdu o vədə başım.
Hər nə sənin əksinə mən söylədim.
İndi yəqin oldu ki səhv eylədim.
Elm səni şah eylədi aqibət.
Cəhl məni eylədi heyvan sifət.
Belə imiş hökm cəri macəri.
Nə etməli təqdirə məzi maməzi.
Etdi bu söz Əkrəmə təsir çox.
Qıldı onun halını təğyir çox.
Yandı canı, qıymadı qardaşına.
Yad edibən gəldiyini başına.
Aldı döşə qardaşının başını.
Tökdü gözündən su kimi yaşını.

# LÜĞƏT

ab-su
axərin – digər
am – ümumi camaat
aşina – dost
ayəndə - gələcək
barigah – izinlə girilə biləcək uca bir məqam (yer)
bari geran – qiymətli yük
beca – yerinə
bəhr – dəniz/bəhər
bəhrəyab – bəhrələnmiş
bəsat – sadə
bəstər - yataq
biar – abırsız
bihudə - əbəs yerə
bilumum – ümumilikdə
bişomar - hesabsız
ca - yer
cai dəbir – oxumaq yeri
calisu – oturmaq
cəhl – cəhalət
cürm – günah
cürmün - günahkar
çərxe xəm – beli əyilmiş
dal – kürək
dana – ağıllı
dar - ev

degərgün – pərişan
dəhan - ağız
dəhr – kənd
dəlail – dəlil
dəmbədəm – anbaan
dəngəsər - dəng
dəstirəs - əlçatan
dəvat – mürəkkəb (maye) – çernil
didə - göz
dour – dövrə
durbin – uzaqgörən
əxvət - ədalət
əlhəq – haqq
əndişə - düşüncə/qorxu
ənikahat - nikah
fariğ – məzun
feili bəd – pis iş
fəhm - anlama
fərzənd - oğul
fur – nur
giləmənd – gileylənən
ğayət – hədəf
ğeyvər – hikmətli/qeyrətli
hacət – hal/məcbur
heyz – aybaşı
həmiyyət – hamılıqla
hərgez – heç vaxt
həsən – gözəl

himmət - əzm, səy
huşiyar – ağıllı-başlı
xah – istəmək
xahi – istər
xas - xüsusi adamlar
xər – eşşək
xord – yemək
xudpəsənd – özündən razı
xun - qan
xurşid – günəş
xülqi – xasiyyət
irtihal – ölmək
kar - iş
kari niku – yaxşı iş
keşti – gəmi
kəbir - böyük
kəsbi ulyumə - elmləri öyrənmək
kolah - papaq
köhn – köhnə
qəriyə - kənd
qil və qam – söz-söhbət
qoftequ - danışıq
qoul – söz vermək
qozar – keçmək
quş - qulaq
ləhv və ləib – kef-damaq
ləm yəzəl
ləhzə - an

mah – ay
maməzə - keçmiş
maya - pul
mehda/mehta - səxavətli
mehnət - möhnət, əzab, dərd, qəm
mədar - mərkəz/dairə
məğfirət – bağışlanma
məkrəmət – kərəm
məlunə - lənətlənmiş
mənal – nail olunan/var-dövlət
mənzur – niyyət
mərd – kişi
modam - davamlı
modar – idarə
morda – ölü
mucrim – müqəssir
mufid - faydalı
munde – qalmaq (burada deyəsən “bunda” olmalıdır)
müdəbbir – tədris edən/ tədbirli, uzaqgörən
mütə - müvəqqəti nikah
müttəsil - dayanmadan
naçarlıq – çarəsizlik
nagahan – birdən-birə
naməzac – kefsiz/naxoş
nan – çörək
nəccarlıq - xarratlıq
nəhi – çəkinmək
nifaq – düşmənçilik

nifas – doğuşdan qabaq gələn qan
niqah – baxmaq
no/noi - növ
numruz – yarım gün
örümçək – hörümçək
pa - ayaq
payanə - son
payei fəzl
peyvəstə - birlikdə
pənbei - pambıq
pərvəriş – artmaq
pəsəndidə - bəyənilmiş
pir – qoca
piş – qabaq, ön
pişəgər – peşəkar
por xun – qanla dolu
rağib - meyilli
rah - yol
rəf – dəf
rəxt - döşənəcək, yataq / pal-paltar
rəm - hürkmə, qorxub qaçma
rənc/rəncidə - əziyyət
rəza - razı
ruberu – üzbəüz
runemai – bəxtigətirən
rusiyah - üzüqara
ruz – gündüz
rüxsət – icazə

sadir - çıxma
sal - il
sefid - ağ
seid – ov
sezavar dar – var-dövlətə layiqli
səb – ağır, çətin
